*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*04.07.2016-cı il tarixli,*
*459 nömrəli əmri ilə təsdiq edilmişdir*

**Xarici dillər təmayüllü lisey və gimnaziyaların**
**tədris planlarına dair qeydlər**

1. Şagirdlərin sayı 20 və daha çox olan siniflər aşağıdakı fənlərin tədrisində iki qrupa bölünür:

1.1. Tədris rus dilində aparılan I-XI siniflərdə "Azərbaycan dili", tədris dilindən asılı olmayaraq I-XI siniflərdə xarici dil, V-IX siniflərdə "İkinci xarici dil", "Texnologiya", V-XI siniflərdə fiziki tərbiyə, X-XI sinifdə "İnformatika" fənni üzrə praktik məşğələlər.

2. Tədrisi səmərəli təşkil etmək məqsədilə tədris planlarında seçmə fənlərə, dərsdənkənar məşğələlərə, fakültativ, fərdi və qrup məşğələlərinə ayrılmış saatlardan aşağıdakı kimi istifadə olunur:

2.1 Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə I sinifdə 1 (bir) saatı, II-IV siniflərdə 2 (iki) saatı, V-VIII siniflərdə 1 (bir) saatı, IX sinifdə 2(iki) saatı, seçmə fənlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə X-XI siniflərdə 4 (dörd) saatı "Xarici dil"in tədrisinə verilmişdir. Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə V-VII siniflərdə 1 (bir) saatı "İkinci xarici dil"in tədrisinə verilmişdir.

2.2. Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı VIII siniflərdə "Qarabağın tarixi" kursuna verilmişdir.

2.3. V-IX siniflərdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı "Nitq mədəniyyəti"nin, X-XI siniflərdə fakültativ və fərdi qrup məşğələlərinə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı "Üslubiyyat"ın tədrisinə verilmişdir.

2.5. X sinifdə seçmə fənlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 2 (iki) saatı "Azərbaycan dili"nin, 1 (bir) saatı "Azərbaycan tarixi"nin, 1 (bir) saatı "İnformatika"nın tədrisinə verilmişdir.

2.6. XI sinifdə seçmə fənlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 2 (iki) saatı "Azərbaycan dili"nin, 1 (bir) saatı "Azərbaycan tarixi"nin, 2 (iki) saatı "Ədəbiyyat"ın, 1 (bir) saatı "İnformatika"nın tədrisinə verilmişdir.